

AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI

# POLİS

www.pq.mia.gov.az

polisazerbaycan

13 aprel 2023-cü il
cümə axşamı

1933-cü ildən çıxır
№ 14 (3628)

100 il

**Daxili İşlər Nazirliyində işləmək, onun əməkdaşı, zabiti olmaq bir tərəfdən şərəflidir, ikinci tərəfdən də çox məsuliyyətli, əzab-əziyyətlidir. Bütün bunları bilirik, dövlət bunu məhz belə qiymətləndirir və xalqımızın əksəriyyəti də DİN-nin cəmiyyətimizdə, dövlətimizdə tutduğu görkəmli mövqeyini qiymətləndirir, bu orqana və onun əməkdaşlarına hörmət, ehtiram bəsləyir.**

*Heydər Əliyev,*
*ümummilli lider*

## Rəsmi xronika

***Dövlətimizin başçısı aprelin 12-də Şimali Makedoniya Respublikasının xarici işlər naziri, ATƏT-in fəaliyyətdə olan sədri Buyar Osmanini qəbul edib.***

***Prezident İlham Əliyev aprelin 11-də Bosniya və Herseqovinanın təhlükəsizlik naziri Nenad Neşiçin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.***

***Ölkəmizin rəhbəri Monteneqronun yeni seçilmiş Prezidenti Zati-aliləri cənab Yakov Milatoviçə təbrik məktubu göndərib.***

# AZƏRBAYCAN DÜNYADA ETİBARLI TƏRƏFDAŞ KİMİ QƏBUL OLUNUR

Bu gün Azərbaycan dünya miqyasında ən sürətlə inkişaf edən ölkələrdən biridir. Bu inkişafın təməlində Prezident İlham Əliyevin uğurla, uzaqgörənliklə reallaşdırdığı daxili və xarici siyasət kursu dayanır.



Hədəflənən nəticələrin əldə olunması, sosial-siyasi islahatların həyata keçirilməsi, qanunvericilik bazasının zənginləşdirilməsi, ictimai-siyasi sabitliyin qorunması ölkəmizin beynəlxalq münasibətlər sistemindəki nüfuzunu daha da artırır, onu qlobal məsələlərin həll olunmasına təsir edə biləcək qüvvəyə çevirir. Ötən il Qoşulmama Hərəkatına üzv dövlətlərin ölkəmizin quruma rəhbərlik müddətinin daha bir il uzadılması barədə verdiyi qərar həm Azərbaycanın dünya miqyasında söz sahibi, həm də ədalətin və beynəlxalq hüququn müdafiəçisi kimi önəmli tərəfdaş olduğunu isbatladı.

Ölkəmizin uzun illərdən bəri uğurla evsahibliyi etdiyi Qlobal Bakı Forumu da nüfuzlu beynəlxalq platformaya, bəşəriyyətin taleyi ilə bağlı bir sıra mühüm məsələləri dünyanın diqqətinə çatdırmaq üçün yüksək tribunaya çevrilib. Dövlətimizin başçısının Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə bu ilin 9 mart tarixində "Dünya bu gün: Çağırışlar və ümidlər" mövzusunda təşkil etdiyi X Qlobal Bakı Forumundakı çıxışı da bunu bir daha təsdiqləmiş oldu. Prezident İlham Əliyev çıxışında xüsusi vurğuladı ki, hazırda biz soyuq müharibənin bitməsindən sonra bugünədək baş vermiş, bəlkə də ən ciddi Şərq-Qərb qarşıdurmasının şahidi oluruq. Qoşulmama Hərəkatı körpülərin salınmasında, münaqişələrin həllində yeni yanaşmaların formalaşdırılması və Qoşulmama Hərəkatının təməl prinsiplərinin təmin edilməsində mühüm rol oynaya bilər.

Forumda ölkəmizin rəhbəri Vətən müharibəsindəki qələbəmizdən sonra regionda yaranmış yeni tarixi reallıqlar, daimi sülhün əldə olunması üçün atılmalı addımlar barədə fikirlərini də bölüşdü, Bakının mövqeyini diqqətə çatdırdı.

Fevralın 18-də Münhen Təhlükəsizlik Konfransı çərçivəsində təşkil edilmiş "Dağları aşmaq? Cənubi Qafqazda təhlükəsizliyin qurulması" adlı plenar iclas tarixi bir toplantı kimi yadda qaldı. Azərbaycan Prezidenti İlham Əliyevin toplantıda iştirakı, plenar iclasdakı proqram xarakterli çıxışı, irəli sürdüyü tezislər isə bölgəmizin bu günü və gələcəyinə aydın strateji baxışı ifadə etməklə həm də daim xatırlanacaq tarix, diplomatiya, siyasət dərsi idi.

Ölkəmizin fəal iştirakı ilə güclənən Türk Dövlətləri Təşkilatı da qlobal proseslərə təsir imkanlarını artırır. Eyni zamanda üzv dövlətlər arasında qarşılıqlı həmrəyliyin, bir-birinə dəstəyin, inam və güvənin parlaq nümunəsini ortaya qoyur. Dövlətimizin başçısının təşəbbüsü ilə Türk Dövlətləri Təşkilatının Türkiyənin bir neçə bölgəsində baş vermiş və çoxsaylı insan tələfatına, xəsarət almasına səbəb olmuş güclü zəlzələnin fəsadları ilə bağlı Ankarada keçirilən zirvə görüşü, eləcə də üzv dövlətlərin Türkiyəyə dəstəyi bunun bariz nümunəsidir.

Prezident İlham Əliyev martın 14-də Almaniyaya səfərində Cənubi Qafqazda sülh və əməkdaşlıq zamanının çatdığını, Ermənistanın bu şansı qaçırmamalı olduğunu bəyan edərək Azərbaycanın daima sülhsevər mövqe sərgilədiyini bir daha ortaya qoydu.

Bütün bunlar onu göstərir ki, Azərbaycan xarici siyasət xəttini uğurla davam etdirir və bu gün tarixin ən qüdrətli dövrünün yeni nailiyyətlərini qazanır.




***Azərbaycan Respublikasının daxili işlər naziri general-polkovnik cənab Vilayət Eyvazov tərəfindən cari il aprel ayının 18-də Sabirabad Rayon Polis Şöbəsinin inzibati binasında İmişli, Beyləqan, Füzuli, Xocavənd, Saatlı və Sabirabad şəhər və rayonlarının sakinlərinin qəbulu keçiriləcək.***

***Qəbula yazılmaq istəyən vətəndaşlar Daxili İşlər Nazirliyinin səlahiyyətlərinə aid məsələlərlə bağlı 17.04.2023-cü il tarixədək yaşadıqları ərazinin polis orqanına, habelə DİN-in mia.gov.az internet saytı vasitəsilə və sosial şəbəkələrdəki səhifələrinə müraciət edə bilərlər.***

***Qəbula gələnlərdən şəxsiyyət vəsiqəsi tələb olunur.***

# VƏTƏN MÜHARİBƏSİ İŞTİRAKÇILARI POLİS ORQANLARINDA XİDMƏTƏ QƏBUL OLUNUB



Aprelin 11-də daxili işlər naziri, general-polkovnik Vilayət Eyvazov respublikanın şəhər, rayon polis orqanlarında sıravi və kiçik rəis heyəti vəzifələrində xidmət etmək arzusunda olan gənclərin növbəti sıra baxışını keçirib.

Sıra baxışında Daxili İşlər Nazirliyinə onlayn qaydada müraciət etmiş gənclərdən daha hazırlıqlı olan 132 nəfər seçim turunun növbəti mərhələsinə buraxılıb ki, onlardan da 14 nəfəri Vətən müharibəsinin iştirakçısı olub.

Gənclər qarşısında çıxış edən nazir V.Eyvazov xidmətə qəbulun şəffaflıq və aşkarlıq prinsipləri əsasında keçirildiyini qeyd edib. O, seçim turunun digər mərhələlərindən də uğurla keçərək daxili işlər orqanlarında xidmətə qəbul ediləcək gənclərə gələcək fəaliyyətlərində uğurlar arzulayıb, tapşırıq və tövsiyələrini verib.

# Daxili İşlər Nazirliyinin əməkdaşları ağac əkiblər





Müstəqil Azərbaycanın memarı və qurucusu, ümummilli lider Heydər Əliyevin anadan olmasının 100 illik yubileyi çərçivəsində Daxili İşlər Nazirliyi ilə Ekologiya və Təbii Sərvətlər Nazirliyinin birgə təşkilatçılığı nəticəsində paytaxtın Qaradağ rayonu Müşfiqabad qəsəbəsində ağacəkmə aksiyası keçirilib. Tədbirdə hər iki qurumun rəhbər şəxsləri, polis əməkdaşları və Daxili İşlər Nazirliyinin hərbi qulluqçuları iştirak ediblər.

Azərbaycan təbiətinin böyük hamisi ulu öndər Heydər Əliyevin əziz xatirəsinə həsr olunmuş tədbirdə yerli iqlimə uyğun olaraq 1000-ə yaxın Eldar şamı əkilib, ərazidə olan bitkilərə qulluq göstərilib, yaşıllıq zonasında təmizlik işləri aparılıb.

Qeyd edək ki, ulu öndər Heydər Əliyevin əsasını qoyduğu ekoloji siyasət hazırda onun layiqli davamçısı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Ölkəmizdə ətraf mühitin mühafizəsi və ekoloji təhlükəsizliyin təmin edilməsi məqsədilə Daxili İşlər Nazirliyinin əməkdaşları digər dövlət orqanları ilə birlikdə mütəmadi olaraq məqsədyönlü tədbirlər həyata keçirir.

*Zeyni Hüseynov,*
*polis baş leytenantı*

# Tarix yaradan, tarix yazan lider

Daxili İşlər Nazirliyinin Polis Akademiyasında müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, xalqımızın ümummilli lideri Heydər Əliyevin anadan olmasının 100-cü ildönümünə həsr olunan tədbir keçirilib. Tədbir iştirakçıları əvvəlcə ulu öndər Heydər Əliyevin, Azərbaycanın suverenliyi və ərazi bütövlüyü uğrunda canlarını fəda etmiş şəhidlərin xatirəsini bir dəqiqəlik sükutla yad ediblər. Dövlət himni səsləndirilib.

Tədbiri giriş sözü ilə açan Polis Akademiyasının rəisi, polis general-mayoru Canpolad Daanov qəlbi daim vətən eşqi ilə döyünən, bütün varlığı ilə xalqına bağlı olan Heydər Əliyevin Azərbaycan tarixindəki və beynəlxalq arenadakı rolundan, o cümlədən demokratik, hüquqi dövlət quruculuğunda, ölkəmizin qüdrətlənməsində, xalqın rifahının yüksəldilməsində misilsiz xidmətlərindən və dünya siyasətinə verdiyi töhfələrdən danışıb. O, qeyd edib ki, ulu öndər Heydər Əliyevin Azərbaycanın işıqlı gələcəyinə hesablanmış mükəmməl siyasətini yeni müstəvidə dövrün tələblərinə uyğun şəkildə uğurla davam etdirən dövlətimizin başçısı cənab İlham Əliyevin rəhbərliyi ilə hakimiyyətlə xalq arasında olan sıx bağlılığın nəticəsində ölkəmiz hərtərəfli inkişaf edib. Bütün bunlar isə Vətən müharibəsindəki möhtəşəm qələbəmizi şərtləndirib, nəticədə hərbi və siyasi-diplomatik yolla 30 ilə yaxın müddətdə düşmən tapdağında olan dədə-baba torpaqlarımız işğaldan azad edilib.






Tədbirdə daha sonra çıxış edən Azərbaycan Milli Elmlər Akademiyasının Tarix İnstitutunun Əliyevşünaslıq şöbəsinin müdiri, professor Ədalət Qasımov qeyd edib ki, Azərbaycanın gələcəkdə dövlət müstəqilliyinin elan edilməsi üçün real əsaslar, yeni suveren bir ölkə kimi qarşılaşa biləcəyi mühüm məsələlərin həlli üsulları hələ ulu öndər Heydər Əliyevin sovet hakimiyyəti illərində respublikamıza birinci rəhbərliyi dövründə formalaşdırılıb. Məhz onun Azərbaycana rəhbərlik etdiyi həmin illərdə bugünkü dövlət müstəqilliyimizin möhkəm təməli qoyuldu, milli ruh, azərbaycançılıq məfkurəsi yüksəlməyə başladı, kadr korpusunun milliləşdirilməsi istiqamətində qətiyyətli addımlar atıldı, hər il yüzlərlə gənc müxtəlif mühüm, o cümlədən hərbi ixtisaslara yiyələnmək üçün SSRİ-nin ən qabaqcıl ali məktəblərinə göndərildi, azərbaycanlılar dövlət vəzifələrinə irəli çəkildilər. Ümummilli lider Heydər Əliyevin mənalı həyatından və çoxşaxəli fəaliyyətindən ətraflı bəhs edən Ə.Qasımov bildirib ki, şərəfli ömür yolunu ölkəmizin tərəqqisinə və xalqımızın parlaq gələcəyinə həsr edən ulu öndər dövlətçiliyin ideoloji-siyasi əsaslarını yaratmaqla, xalqı əsl müstəqilliyə qovuşduraraq hafizələrdə əbədiyaşarlıq qazanıb.

Tədbirdə öndər Heydər Əliyevin həyat və fəaliyyətindən bəhs edən film nümayiş olunub.

# Ekoloji təhlükəsizlik diqqət mərkəzindədir

Daxili İşlər Nazirliyinin Baş İctimai Təhlükəsizlik İdarəsi Ekologiya və Təbii Sərvətlər Nazirliyinin müvafiq qurumları ilə birgə ekoloji cinayətlərin və ekoloji təhlükəsizlik əleyhinə olan inzibati xətaların qarşısının alınması məqsədilə zəruri tədbirlər həyata keçirir.



Cari ilin mart ayı ərzində Bakı, Sumqayıt şəhərləri, Abşeron və Saatlı rayonları ərazisində bu istiqamətdə keçirilən birgə tədbirlər nəticəsində tullantı emalı yerlərinin müəyyənləşdirilməsi qaydalarının pozulması, çirkab sularının axıdılması, tibbi, sənaye və məişət tullantılarının qalaqlanması və yandırılması zamanı ətraf mühitin mühafizəsi tələblərinə əməl edilməməsi, su obyektlərinin mühafizəsi qaydalarının pozulması, ağacların zədələnməsi və ağaclarla bağlı mühafizə tədbirlərinin görülməməsi, icazə olmadan və ya icazə şərtlərini pozmaqla yerin təkindən istifadə edərək qanunsuz qum və torpaq daşınması, lazımi icazə olmadan və ya qadağan edilmiş yerlərdə, yaxud qadağan olunmuş müddətlərdə, qadağan edilmiş alətlərlə və ya üsullarla ov edilməsi faktları aşkar olunub.

İnzibati Xətalar Məcəlləsinin müvafiq bəndlərinin tələblərini pozan 12 fiziki, 3 vəzifəli və 1 hüquqi şəxs barəsində inzibati tənbeh tədbiri tətbiq olunub.

Bu istiqamətdə tədbirlər davam etdirilir.

*N.Cavadov,*
*polis mayoru*

# "Sağlam Həyat" layihəsi davam edir




Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi tərəfindən həyata keçirilən "Sağlam Həyat" layihəsinin əsas məqsədi müxtəlif yaş qruplarını əhatə edən insanların bədən tərbiyəsi və idman məşğələlərinə şüurlu tələbatını formalaşdırmaq, yeniyetmə və gəncləri zərərli vərdişlərdən çəkindirmək, ölkədə bədən tərbiyəsi və idmanı təbliğ etməklə yanaşı, inkişaf etdirərək sağlam cəmiyyətin qurulmasına töhfə verməkdir.



Layihə ilə bağlı bu günlərdə keçirilən tədbirdə Daxili İşlər Nazirliyinin, Fövqəladə Hallar Nazirliyinin, Müdafiə Sənayesi Nazirliyinin, Dövlət Miqrasiya Xidmətinin, Dövlət Gömrük Komitəsinin və digər ali təhsil müəssisələrinin 1000 nəfərə yaxın iştirak edib.

Polis Akademiyasını təmsil edən kursantlar "Sağlam Həyat" layihəsinin Əsasnaməsində nəzərdə tutulmuş bütün normativlərdən (100 metrə qaçış, turnikdən dartınma, 8 metrəyə yerində dayanaraq tullanmaq, paralel qollar, 3 kiloqramlıq topu 8 metr məsafəyə atmaq) yüksək nəticə əldə edərək qızıl sertifikatlarla təltif olunublar.

*"Polis"*

# Azərbaycan deyiləndə onu xatırlayırıq

**Beyləqan Rayon İcra Hakimiyyətinin və Daxili İşlər Nazirliyinin Baş Mühafizə İdarəsinin Beyləqan Regional Mühafizə Şöbəsinin** birgə təşkilatçılığı ilə "Ümummilli lider Heydər Əliyev müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusudur" adlı tədbir keçirilib.



Tədbir iştirakçıları əvvəlcə ulu öndərin abidəsini ziyarət edərək önünə gül dəstələri düzüblər.

Azərbaycanın Dövlət Himni səsləndirildikdən, ulu öndərin və torpaqlarımızın azadlığı uğrunda şəhid olan həmvətənlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edildikdən sonra tədbiri giriş sözü ilə açan **DİN Baş Mühafizə İdarəsinin Beyləqan Regional Mühafizə Şöbəsinin rəisi, polis polkovnik-leytenantı Elşən Qayıbov** müstəqil Azərbaycanın ümummilli liderin şah əsəri olduğunu qeyd edib.

O, ulu öndərin yenidən xalqın tələbi ilə ali hakimiyyətə qayıtdıqdan sonra ölkəmizdə baş verən siyasi xaosa son qoyulduğunu, cinayətkar ünsürlərlə qətiyyətli mübarizə aparıldığını, ictimai-siyasi sabitliyin təmin edildiyini, ən ümdəsi, ordu quruculuğu istiqamətində çox mühüm addımların atıldığını diqqətə çatdırıb.

Əldə etdiyimiz bütün uğurların təməlində həm də ulu öndərin azərbaycançılıq ideologiyasının dayandığını deyən **Rayon İcra Hakimiyyəti başçısının müavini Yeganə Məmmədova** ümummilli lider Heydər Əliyevin inkişaf strategiyasının, onun müəyyənləşdirdiyi daxili və xarici siyasət xəttinin bu gün bizi yeni-yeni qələbələrə ruhlandırdığını vurğulayıb.

**Rayon Ağsaqqallar Şurasının sədri Etibar İmanov, YAP Beyləqan rayon təşkilatının nümayəndəsi Niyaməddin Əsgərov, Araz qəsəbə tam orta məktəbin tarix müəllimi Zaur Qədirov** Heydər Əliyevin həyat və fəaliyyətindən, Azərbaycanı dünyanın inkişaf etmiş və güclü ölkələr sırasına çıxaran ideyalarından, bu gün Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin əmrinə hər an hazır olan sağlam, savadlı, vətənpərvər Azərbaycan gəncliyinin yetişməsində onun misilsiz xidmətlərindən bəhs ediblər.

Sonda Heydər Əliyevin siyasi fəaliyyətinə həsr olunmuş videoçarx nümayiş olunub.

*"Polis"*

# Etibarlı mühafizəyə təminat verirlər

***Həmsöhbət olduğum sakinlərdən biri vaxtı ilə belə demişdi; əgər iri şəhərlərdəki mənzil və obyekt sahibləri öz əmlaklarını mühafizə polisinin təmin etdiyi təhlükəsizlik çətirinin altına yığsaydı, oğurluqdan zərərçəkən yox deyəcək qədər azalardı.***

Ola bilər bu, indilik fərziyyə kimi görünsün. Ancaq Nizami Rayon Mühafizə İdarəsinin nümunəsində də müşahidə etdiyimiz müsbət tendensiya bizə əsas verir ki, nikbin olaq. Məsələ ondadır ki, ötən il obyekt və mənzillərin mühafizəyə qəbul edilməsində ilk sırada qərarlaşan Nizami RMİ cari ilin ilk rübündə nəticələri bir qədər də yaxşılaşdırmaq istiqamətində səylərini artırıb.

İdarə rəisi, polis polkovniki Elşən Camalovun rayon ərazisində mülkiyyət sahibləri ilə maarifləndirici görüşlərin keçirilməsini, onlarla izahedici işlərin mütəmadi aparılmasını xüsusilə diqqətdə saxladığını deyən rəisin şəxsi heyət üzrə köməkçisi, polis mayoru Akif Yadigarov bunu nailiyyətlərinin əsas səbəbi hesab edir.

Qeyd edək ki, bu ilin yanvar - mart aylarında idarə tərəfindən 34 obyekt mühafizəyə qəbul edilib. Hazırda mərkəzləşdirilmiş mühafizə məntəqəsi ilə bağlanmış müqavilələrin sayı ümumilikdə 759-a çatdırılıb ki, onlardan 350-i obyekt, qalanı mənzildir. İctimai qaydanı pozan 2, axtarışda olan 1, bıçaqla hücum etmə faktına görə 1 nəfər saxlanılaraq ərazi polis bölmələrinə təhvil verilib, 2 intihara cəhdin qarşısı alınıb.

Polis mayorunun sözlərinə görə, rayondakı binalar əsasən, özlərinin təhlükəsizlik xidmətlərilə qorunan yeni tikililərdir və buradakı mənzil sahibləri bununla kifayətlənirlər. Adətən, birinci və ikinci mərtəbələrdə yerləşən mənzillərin sahibləri polisin mühafizə sisteminə qoşulmağa üstünlük verir. Buna görə obyektlərə nisbətən mühafizəyə qoşulan mənzillərin sayı az olur.




Ancaq, buna baxmayaraq, idarə rəisinin göstərişi ilə Rayon Polis İdarəsinin əməkdaşları da daxil olmaqla, sakinlərlə görüşlər keçirilir, bukletlər paylanılır, bir sözlə, izahedici işlər davam etdirilir.

Xatırladaq ki, keçən ilin son ayında xüsusi texniki mühafizə vasitələri ilə qorunan mağazaların birindən ümumi dəyəri 31 min manat olan "iPhone" markalı mobil telefonları oğurlamağa cəhd edən şübhəli şəxs Mühafizə İdarəsinin tutucu qrupu tərəfindən "iş başında" yaxalanmışdı. Bu mühafizəçilərin peşəkarlığını və etibarlı qorumaya təminat verdiklərini göstərən faktlardan sadəcə biridir.

Tutucu qruplarının hazırlıq səviyyəsi barədə danışan bölük komandiri, polis kapitanı Səftər Mirzəlizadə deyir ki, həftədə iki-üç gün müvafiq məşğələlər keçirilir, şübhəli şəxsin yaxalanması, obyektin mühafizəsi zamanı ortaya çıxan problemlərin həlli kimi məsələlər simulyasiya edilir, əməkdaşların peşə vərdişlərini təkmilləşdirməyə çalışırlar. Mühafizə edilən obyektə hər hansı müdaxilə olsa da, olmasa da tutucu qrupun həyəcan siqnalına tam hazırlıqlı vəziyyətdə getdiyini vurğulayan bölük komandiri qeyd edir ki, əməkdaşların fiziki hazırlıq səviyyəsinə rəhbərlik tərəfindən xüsusi diqqət ayrılır, həftə ərzində keçirilən məşğələlərdə normativlər götürülür.

Bir sözlə, deyə bilərik ki, mühafizəyə qəbuledilmə ilə bağlı müsbət tendensiya barədə gözləntilərimiz həm də yerlərdə xidmətin nümunəvi təşkilindən qaynaqlanır.

*Rəşad Mehtiyev, polis baş serjantı*

# Qardaş ölkənin 178 "yaşlı" polisi




Bu günlərdə Türk Polis Təşkilatının yaranmasının 178-ci ildönümü qeyd edildi. Qardaş ölkənin polisi çox keşməkeşli tarixi yol keçərək cinayətkarlığa qarşı mübarizədə hazırkı mərhələsinə çatıb.

Ümumən, qədim türklərdə ictimia asayiş və təhlükəsizliyi subaşı adlandırılan şəxslər tərəfindən qorunub. Su - əsgər, komandir anlamını verirdi. Onlar müharibə vaxtı hərbi birliklərə rəhbərlik edir, sülh dönəmlərində isə cavabdeh olduqları bölgənin təhlükəsizliyini təmin edirdilər.

Osmanlıda Yeniçəri ocaqlarının yaranması ilə bu kimi məsələlər əsasən yeniçərilərə həvalə olunub, onların imperiya səhnəsindən silinməsindən qısa müddət sonra isə indiki Türkiyə polisinin əsası qoyulub. 1845-ci ilin aprel ayının 10-da İstanbulda "Polis" adı ilə bir təşkilat qurulub, yenə eyni tarixdə qüvvəyə minən Polis Nizamnaməsində onun vəzifələri göstərilib və bu barədə xarici ölkələrin səfirliklərinə, nümayəndəliklərinə məlumat verilib.

Beləcə, 1845-ci ildə əsası qoyulan Türkiyə polisi ciddi struktur dəyişiklikləri, islahatlar nəticəsində inkişaf edib və bugünkü Türk Polis Təşkilatı halına gəlib.

Yarandığı tarixdən bəri qardaş ölkədə ictimai asayiş və təhlükəsizliyi qorumaq üçün mübarizə aparan, yeri gələndə şəhidlər verən Polis Təşkilatının şanlı tarixinə hörmət əlaməti olaraq hər il aprelin 10-u "Polis Günü" kimi qeyd edilir.

*"Polis"*

# ON İKİYƏ İŞLƏMİŞ...

**Roman polisin cinayətkarlıqla qətiyyətli mübarizəsindən bəhs edir.**

**Bakı Şəhər Baş Polis İdarəsinin baş inspektoru, polis polkovnik-leytenantı Fəxrəddin Qurbanovun** "On ikiyə işləmiş..." adlı detektiv romanı işıq üzü görüb.




Qeyd edək ki, romanın süjet xətti biri otuz il əvvəl, digəri isə yenicə törədilmiş iki qətl hadisəsinin paralel olaraq araşdırılması üzərində qurulub.

Kitabda həmçinin, narkomaniyanın səbəb olduğu cinayətlərdən söhbət açılır, gənclərin zərərli vərdişlərdən uzaq durmaları tövsiyə olunur.

"Polis"in suallarını cavablandıran müəllif növbəti əsərinin trilogiya olacağını və II Qarabağ müharibəsi zamanı daxili işlər orqanları əməkdaşlarının xüsusən, polisin arxa cəbhədəki fəaliyyətinə diqqət çəkəcəyini bildirib.

*Ruslan Vəliyev, polis baş leytenantı*

# Silah-sursat aşkar edilib

Bərdə regional qrupumuzdan verilən məlumata görə, Qubadlı Rayon Polis Şöbəsinin əməkdaşlarının keçirdiyi tədbirlər zamanı rayonun Xudular kəndi ərazisində 1 ədəd Faqot, 120 ədəd müxtəlif çaplı mərmi və 4216 ədəd müxtəlif çaplı patron götürülərək aidiyyatı üzrə təhvil verilib. Füzuli rayonunda da Polis Şöbəsinin əməkdaşlarının rayon ərazisində keçirdikləri növbəti tədbirlər zamanı müxtəlif silah-sursat aşkar edilib. Tapılan 5 pulemyot, 5 avtomat, 1 qumbaraatan, 1 Faqot, 1 snayper tüfəngi, 1 əl qumbarası, 3968 müxtəlif çaplı patron və digər döyüş sursatları aidiyyəti üzrə təhvil verilib.



*Aslan Qiyaslı, polis kapitanı*

# BİZƏ YAZIRLAR...



**"Güvən Xeyriyyə İctimai Birliyi"nin sədri Nigar Bayramlı yazır:** "Qaradağ rayonunun Lökbatan, Qızıldaş, Sahil, Korgöz və Puta qəsəbələrində qurban əti paylayacaqdım. Fikirləşirdim ki, bu işi özüm tək yerinə yetirə bilərəm. Yol polisi əməkdaşlarına yaxınlaşıb ərazilə bağlı bir-neçə sual verdim. Onlar məqsədimi bildikdən sonra mənə bu işdə yardım etdilər. Və onların köməkliyi ilə lazımi ünvanlara yardımı çatdırdım".

**Bakı şəhər sakini Zümrüd Əhədova** ünvanladığı məktubunda oğlu Fuad Əhədliyə məxsus motosikletin nömrəsinin itdiyini və kömək üçün Yasamal Rayon Polis İdarəsinə müraciət etdiyini qeyd edir. Müraciətinə hassas yanaşılmasına və nömrənin tapılmasında göstərilən köməkliyə görə Yasamal RPİ-nin şəxsi heyətinə dərin təşəkkürünü bildirir."

"Mənə qarşı olunan dələduzluq faktıyla əlaqədar Sabunçu Rayon Polis İdarəsinə müraciət etdim. Müraciətimə operativ və obyektiv baxıldı. Qısa zaman kəsiyində mənə dəymiş ziyan ödətdirildi. Xidməti vəzifəsini layiqincə yerinə yetirən, vətəndaş müraciətinə həssaslıq göstərən polislərimizə dərin minnətdarlığımı bildirirəm." **Bu sözlər Yevlax rayon sakini Zəminə Salahovanın** DİN rəhbərliyinə ünvanladığı təşəkkür məktubundandır.

**Quba rayon sakini Etibar Şahmirzəyev** məktubunda Sumqayıt şəhərindəki evindən "Steels" markalı velosiped oğurlandığını və bununla əlaqədar Sumqayıt ŞPİ-nin 2-ci Polis Bölməsinə müraciət etdiyini yazır. Bildirir ki, qısa zaman kəsiyində oğurluğu törətmiş şəxs yaxalanıb və dəymiş ziyan tam ödətdirilib. O, Sumqayıt ŞPİ-nin 2-ci Polis Bölməsinin şəxsi heyətinə minnətdarlıq ifadə edir.

**Gəncə şəhər sakini Aygül Bağırova** isə məktubunda avtomobilinin nömrə nişanının itməsi ilə əlaqədar Baş Dövlət Yol Polisi İdarəsinə müraciət etdiyini qeyd edir. Bildirir ki, müraciətinə operativ baxılıb və qısa zaman ərzində avtomobilin qeydiyyat nişanı bərpa edilib.

*Ruhiyyə Əliyeva, polis kapitanı*

# ÇEMPİON KAPİTAN

Hər bir idmançı xarici ölkədə mənsub olduğu dövlətin təmsilçisi sayılır və çox güman, elə buna görə "idman da bir siyasətdir" deyimi ortaya çıxıb. Bu baxımdan idmançıların kimisi dəri əlcəkli, kimisi qara kəmərli... kimisi isə tatami üzərindəki "diplomatdır".

Bu gün beynəlxalq arenalarda ölkəmizin bayraq haqqını, idman şərəfini qoruyan idmançı polis əməkdaşlarının arasında adı ilk sıralarda çəkilən ağır atletimiz Famil Məhərrəmov da bu missiyanı daşıyır. Daha doğrusu, başı üzərinə qaldırır.

Beynəlxalq yarışlardan Vətənə dönən Famillə bağlı, adətən, "çempion yol polisi" tipli xəbərlər oxumuşuq. Yəni idmanla polis peşəsinin uğurlu kombinasiyası, həm də onun ağır zəhmətinin, gərgin məşqlərinin sayəsində bu üç kəlməlik anlayışda bütünləşə bilib.

Poverliftinq üzrə 3 dəfə dünya, 3 dəfə Avropa, 5 dəfə respublika çempionu, 5 dəfə isə beynəlxalq turnirin qalibi olmuş Famil Məhərrəmovun adı heç şübhəsiz ki, yığma komandanın üzvü kimi, Azərbaycanın idman tarixində qalacaq. Ancaq Baş Dövlət Yol Polisi İdarəsinin Yol Patrul Xidməti Alayının baş inspektoru, polis kapitanı Famil Məhərrəmov, eyni zamanda, polisin salnaməsində özünə bəri başdan yer edib.



Onun əsl ağır atlet görkəmi istər-istəməz adamda elə bir təəssürat yaradır ki, həm polis peşəsinin çiyinlərinə yüklədiyi ağır məsuliyyəti, həm də bir poverliftinq kimi qaldırdığı ağır çəkiyə tab gətirmək üçün onun təki cüssəli, sözün bütün mənasında, böyük olmaq lazımdır. Bu ona imkan verir ki, yarışlarda öz gücünü sərgiləməklə yanaşı, bayrağımızın timsalında Azərbaycanın, mündirindəki ulduzların "işığında" isə bizim – polisin şanını özündən yuxarı qaldırıb dünyaya göstərsin.

"Beynəlxalq yarışlara qatılanda ölkəmlə yanaşı, daxili işlər orqanlarını da təmsil etdiyimi unutmuram. Hətta formamın üzərinə Daxili İşlər Nazirliyinin abreviaturası yazılıb – DİN. Təbii ki, bu ayrıca iftixar hissi doğurur. Vətənə qalib polis əməkdaşı kimi dönməyin qürurunu sözlə ifadə etmək çətindir", - deyən həmkarımızın polis peşəsinin mənəvi ağırlığının öhdəsindən layiqincə gəldiyini on üç illik xidməti, fiziki ağırlıqla bağlı isə xidmət yerində sərgilənən kubokları, çoxsaylı medalları təsdiq edir.

On beş yaşından başlayaraq ağırlıqqaldırma yarışlarına çıxan həmkarımızın idman zallarında keçən ömrü 40-ı haqlayıb, amma bu gün də beynəlxalq yarışlarda gənc atletlərlə mübarizə aparır. Deyir, onun yaş qrupundan olanlar masterlər arasında yarışmağa çalışırlar, çünki orada qalib gəlmək daha asandır. O isə yenə çətin rəqiblər seçir. May ayında Qırğızıstanda keçirilməsi nəzərdə tutulan Avropa çempionatı onun üçün daha bir sınaq olacaq və arzuladığı növbəti çempionluğunu idman zallarında, hər zamankı kimi, öz təri ilə "qidalandırır".

Daxili işlər orqanlarının idmançı əməkdaşlarına, eləcə də ona DİN rəhbərliyi tərəfindən yarışlara hazırlaşmaq üçün lazımi şəraitin yaradıldığını, diqqət və qayğı göstərildiyini deyən ağır atletimizin təcrübəsindən, bacarığından Alayın şəxsi heyəti də fiziki hazırlıq məşğələlərində yararlanır. Əməkdaşlarımız arasında keçirilən yarışlarda Alayın komandasının uğurları ilə yadda qalması bunun bariz nümunəsidir.

*R.Mehtiyev*

## Mükafatlı sual rubrikası



*Azərbaycan tarixşünaslığında onun öz imzası var. Tariximizin ən dərin qatlarına nüfuz edən elmi araşdırmaları bu gün sevə-sevə oxunur və öyrədilir. İllər öncə yazdığı kitab isə repressiyaların qurbanı olan ziyalılarımıza, ictimai xadimlərə həsr olunub. Onların mühakiməsi ilə bağlı faktlara ilk dəfə məhz o kitabda rast gəlmişik. Söhbət kimdən və hansı kitabdan gedir?*

**Vatsap: +99455-875-16-39**

# Oğurluq edən şəxs saxlanılıb




Yasamal Rayon Polis İdarəsi əməkdaşlarının daxil olmuş məlumat əsasında keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində rayon ərazisində oğurluq hadisəsi törətməkdə şübhəli bilinən, məhkumluğu olmayan, paytaxtın Binəqədi rayonunda qeydiyyatda olan S.Ağayeva şübhəli şəxs qismində saxlanılıb.

RPİ-nin İstintaq Şöbəsinin rəisi, polis mayoru Elvin Nəsibovdan aldığımız məlumata görə, dindirilmə zamanı təqsirləndirilən şəxs tamah niyyəti ilə özgənin əmlakını taladığını etiraf edib. Belə ki, o bir neçə ay öncə Bakı şəhəri Nəsimi rayonunda yerləşən "Opera" qadın ayaqqabı mağazasında satıcı işləyən A.Allahverdiyevaya məxsus içərisində 118 manat, şəxsiyyət vəsiqəsi və bir neçə bank kartı olan pul kisəsini oğurlayıb. Əldə etdiyi bank kartlarının birindən NFC funksiyasından istifadə etməklə, dəfələrlə Yasamal rayonunda yerləşən "Oba Yasamal 13" marketindən alış-veriş edib. Təqsirləndirilən şəxs elektron məlumat daşıyıcılarından istifadə etməklə, ümumilikdə zərərçəkmiş şəxsə 463 manat maddi ziyan vurub.

İstintaq Şöbəsinin əməkdaşları tərəfindən A.Allahverdiyevaya dəymiş maddi ziyan ödətdirilməklə, vətəndaş məmnunluğu təmin olunub.

Faktla bağlı Cinayət Məcəlləsinin müvafiq maddələrilə cinayət işi başlanılıb. Araşdırmalar davam etdirilir. Təqsirləndirilən şəxsin digər rayon ərazilərində də anoloji əməllər törətdiyi istisna olunmur.

*Teymur Əlizadə,*
*polis mayoru*


# XƏZRİ sizi gözləyir




**Daxili İşlər Nazirliyinə bilavasitə tabe olan "Xəzri" İstirahət və Sağlamlıq Mərkəzində 16 sentyabr 2022-ci il - 31 may 2023-cü il tarixlərində 2-ci mövsüm üzrə standart otaqların bir günlük qiymətləri**

**(Daxili işlər orqanlarının əməkdaşı üçün 14 gün müddətinə olan yollayışda nəzərdə tutulmuş güzəştlərlə)**

**Qeyd:** 1. "Azərbaycan Respublikası daxili işlər orqanlarında xidmət keçmə haqqında" Əsasnamənin 99-cu bəndinə əsasən, daxili işlər orqanları əməkdaşlarına hər il yollayışın qiymətinin 75 faizi miqdarında, ailə üzvlərinə isə 50 faizi miqdarında imtiyaz verilir. Yollayışlar 14 gün müddətinə ildə bir dəfə verilir və yalnız standart otaqlara aiddir. Bu imtiyaz iki bərabər hissəyə (hər biri 7 gün müddətində) bölünmək şərtilə verilə bilər.

2. Daxili Qoşunların hərbi qulluqçuları (müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları istisna olmaqla) qanunvericiliklə müəyyən edilmiş əsaslarla Mərkəzə yollayış almaq hüququna malikdirlər.

3. Bir günlük xərc tək polis əməkdaşı üçün 25,00 manat (iki nəfərlik nömrəni tək tutduqda 37,50 manat), standart 2 nəfərlik otaqda özü və 1 nəfər ailə üzvü üçün 75,00 manat, özü və 6-12 yaşadək bir uşaq (dolu otaqda əlavə yer verilmək şərti ilə) üçün 62,50 manat, iki nəfər ailə üzvü üçün (özü olmadan) 100,00 manat və onlarla birgə 6-12 yaşadək uşağa əlavə yer verildikdə 125,00 manat təşkil edir.

4. 6 yaşadək uşaqların qalması ödənişsizdir.

5. Qiymətlərə pulsuz 3 dəfə yemək, Wi-Fi şəbəkəsi, SPA girişi (qapalı hovuz, hamam, sauna), çimərlikdən, açıq hovuzdan, akvaparkdan, trenajorlardan, mini-futbol, voleybol və uşaq meydançalarından istifadə daxildir. Digər bütün xidmətlər ödənişlidir.

6. Karantin rejimi dövründə 18 yaşdan yuxarı şəxslərin COVİD-19 pasportunun təqdim etməsi mütləqdir.

**Ünvan: Bakı şəhəri, Zuğulba qəsəbəsi, Rasim İmanov küçəsi, 40. "Koroğlu" metro stansiyasından Mərkəzə 171 nömrəli avtobusla gəlmək olar.**
**Telefon: (+99412) 554-47-60;**
**Mobil telefon: (+99450) 291-15-51; (+99455) 291-15-51;**
**Faks: (+99412) 453-63-33;**
**Poçt indeksi: AZ1090**
**Veb-sayt: www.khazri.mia.gov.az**
**E-poçt: info@khazri.mia.gov.az**

| 16 sentyabr 2022-ci il - 31 may 2023-cü il | | |
|---|---|---|
| (2 nəfərlik standart otağın güzəştsiz qiyməti : iki nəfər qaldıqda 200 manat, bir nəfər tək qaldıqda 150 manat) | | |
| | 2 nəfərlik nömrədə iki istirahətçi qaldıqda 1 nəfər üçün | 2 nəfərlik nömrədə bir istirahətçi tək qaldıqda |
| Yollayışla gələn polis əməkdaşı (75% güzəştlə) | 25,00 manat | 37,50 manat |
| Onun ailə üzvü (50% güzəştlə) | 50,00 manat | 75,00 manat |
| Polis əməkdaşı ilə birgə 6-12 yaşadək hər bir uşağa yalnız dolu otaqda əlavə yer verildikdə (50% güzəştlə) | 25,00 manat | |
| Kənar şəxslər (güzəştsiz qiymət) | 100,00 manat | 150,00 manat |
| Valideyni ilə birgə 6-12 yaşadək hər bir uşağa yalnız dolu otaqda əlavə yer verildikdə (güzəştsiz qiymət) | 50,00 manat | |
| 12 yaşdan yuxarı şəxsə yalnız dolu otaqda əlavə yer verildikdə (güzəştsiz qiymət) | 70,00 manat | |


# Uşaq artıq sığınacaqdadır

Suraxanı rayonunda dilənən, küçə ticarəti ilə məşğul olan azyaşlının rayonun müxtəlif küçələrində avtomobillərə yaxınlaşıb "peraşki" satmasını əks etdirən görüntülərinin sosial şəbəkələrdə yayılmasından sonra məsələni Bakı Şəhər Baş Polis İdarəsinin İctimai Təhlükəsizlik İdarəsi nəzarətə götürüb.

Uşağın yerini müəyyən edən Suraxanı RPİ YYÇPİTB-nin əməkdaşları onun taleyi ilə bağlı vacib məqamları da üzə çıxarıblar.

Məlum olub ki, 12 yaşlı oğlanın anası haqqında heç bir məlumatı yoxdur, atası da onu saxlamağı və təlim-tərbiyəsi ilə məşğul olmağı dostuna həvalə edib. Rəsmi şəkildə qeyyum olmayan bu şəxs isə yeniyetmənin müxtəlif ərazilərdə dilənməsinə və küçə ticarəti ilə məşğul olmasına, beləcə, "göz yumub".

Uşaq onunla söhbət aparan polis əməkdaşlarına bildirib ki, artıq o ailənin himayəsində yaşamaq istəmir. Bundan sonra yeniyetmə rayon icra hakimiyyətinin nümayəndəsinin iştirakı ilə polis əməkdaşları tərəfindən paytaxtdakı sığıncaqlardan birinə təhvil verilib.

*"Polis"*

# İDMAN XRONİKASI

Moskva şəhərində keçirilən peşəkar boks üzrə beynəlxalq turnirdə Suraxanı RPİ 31-ci Polis Bölməsinin sahə rəisi, polis kapitanı Nizami Məmmədov rusiyalı rəqibi Serqey Teplovu nokautla məğlub edərək turnirin qalibi olub.




◆◆◆

Formula 1 Azərbaycan Qran Prisinə ən çox biletin Niderland və Böyük Britaniyadan alındığını bildirən Bakı Şəhər Halqası Əməliyyat Şirkətinin mətbuat katibi Turab Teymurov onu da qeyd edib ki, tribunaların bir çoxuna biletlər artıq tamamilə satılıb: "Qalan tribunalarda isə çox az yer qalıb. Abşeron tribunasının B seksiyası, Filarmoniya tribunası, Sahil tribunası və Bulvar tribunasına biletlər tam satılıb. Muğam tribunasına isə çox az bilet qalıb. Görünür növbəti günlərdə bu tribunaya biletlər bitəcək".

Mətbuat katibi bu il bilet satışlarında bütün rekordların qırıldığını, 2023-cü ilin Formula 1 Azərbaycan Qran Prisinə bilet satışının indiyə qədər keçirilən yarışlardan daha sürətli satıldığını da vurğulayıb: "Formula 1 artıq yeddinci ildir ki, ölkəmizdə keçirilir və bu il ilk dəfədir ki, bu cür nailiyyətlər əldə etmişik".

Qeyd edək ki, 2023-cü il Formula 1 Azərbaycan Qran Prisi 28–30 aprel tarixlərində keçiriləcək.

*Ruslan Vəliyev,*
*polis baş leytenantı*

POLİS qəzetinin Kompüter Mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.
Qəzet həftədə bir dəfə çıxır.
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.
Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Polis"ə istinad olunmalıdır.
REDAKTOR: HAFİZ TƏMİROV
Qeydiyyat № 4326. İndeks: 66993
Sayı 9860
Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-95-69; 590-99-55; 590-99-30
E-poçt: metbuat@mia.gov.az
Çapa imzalanmışdır 17:00
Qiyməti 40 qəpik